# ÖN SÖZ ƏVƏZİ

***SÖZÜN HİKMƏTİ, POEZİYANIN QÜDRƏTİLƏ YARANAN ƏSƏR VƏ YA SAĞLAM HƏYAT TƏRZİNİN "ENSİKLOPEDİYA"SI (ikisindən birini seçmək və yaxud təzə ad düşünüb yazmaq...)***

Şair-publisist , AYB və AJB-nin üzvü, Prezident təqaüdçüsü Zakir Bayramlı müdrik çağında belə yazıb-yaratmaqdan yorulmur. Yazdığı əsərlərdə böyük istək və həvəslə, bütün varlığı ilə Vətənə,torpağa və xalqa olan dərin məhəbbətini yazdığı əsərlərdə tərənnüm etməyə çalışır.

Müəllif yeni kitabına "Qocalıqdan cavanlığa qayıdış" adını təsadüfdən verməyib. Çünki onun bu əsəri bütünlükdə insanları sağlam həyat tərzinə, saf düşüncəyə, nikbin ruha, səbrli və dözümlü olmağa, bir sözlə "Qocalıqdan cavanlığa qayıdış"a səsləyir. Ömrün qocalıq adlı ağır və çətin keçən yaş mərhələsini fikirlə, qəm- qüssə ilə deyil, xoş əhval-ruhiyə ilə, şən ovqatla, özünəinam, özünütəlqin və optimizm şəratində keçirməyi tövsiyə edir. Əsər 8 bölmədən, 50 fəsildən ibarətdir. Z. Bayramlının yeganəliyi ondadır ki, o, burada yüksək ustalıqla publisistikanın və poeziyanın vəhdətini yarada bilmişdir. Kitabda yeri gəldikcə hər mövzuya uyğun olaraq dünyanın dahi filosofların, mütəfəkkir- alimlərin, məşhur loğmanların, cəsur sərkərdələrin, şair-yazıçıların və digər sənətkarlarının sağlamlıq, sağlam həyat tərzi, sağlam gənclik, sağlam qocalıq və sağlam uzunömürlülük haqqındakı məşhur və ölməz kəlamlarından istifadə edilmişdir. Eyni zamanda əsərin bədii dəyərini artırmaq üçün fəsillərin mövzu dairəsinə uyğun gələn rəvayətləri, atalar sözlərini, aforizmləri,təmsilləri, olmuş əhvalatları və s. kitaba daxil etmək məqsədə müvafiq sayılmışdır.

Bundan əlavə əsərə olan oxucu marağını yüksəltməkdən ötrü Z.Bayramlının hər fəslin mövzusu ilə səslənən şeirləri, qəzəlləri, rübailəri və bayatıları və s. kitaba daxil edilmişdir.

Müəllifin bu kitabı cəmiyyətin və ailənin ən aktual problemlərindən biri olan sağlam həyat tərzinə həsr edilib. Ona görə də " Qocalıqdan cavanlığa qayıdış" kitabı fəlsəfi, hüquqi, bədii keyfiyyətləri ilə bərabər, əhalinin psixoloji tələbatına, eləcə də maarifləmə ehtiyaclarına görə xüsusi əhəmiyyət kəsb edir. Əsər sağlamlıq, sağlam həyat tərzi, sağlam gənclik, sağlam qocalıq, " qocalıqdan scavanlığa qayıdış" və sağlam uzunömürlülük haqqında düşüncələrdən bəhs edir. Müəllif yetərincə təhsilə, elmi biliklərə, xüsusi bacarığa və 70 illik sağlam həyat təcrübəsinə malikdir. Ona görə də bu meyarların olması onun bu mövzuda kitab yazmasına mənəvi və hüquqi əsas verir. Şair-publisist əsərin "Dünya və sağlamlıq " bölməsində gedən "Dünya" şeirindən verilmiş nümunədə dünyanı belə tərənnüm edir:

**İnsan məskən salıb hər guşəsində,**
**Hərə öz sənəti, öz peşəsində.**
**Kimsəni qoymayır cavan səsində,**
**Yaşının üstünə yaş sayır dünya.**
**Fırlana-fırlana yaşayır dünya.**

**Dünyanın məqamı hamıya bəlli,**
**Tutub dayanmayın ondan beş əlli.**
**Şəninə tərif yaz, ya qaravəlli,**
**Fərqi yox, hamını daşlayır dünya.**
**Fırlana-fırlana yaşayır dünya.**

Lakin Z.Bayramlı dünyanı "beşgünlük" və ya "müvəqqəti" hesab edən insanlarla razılaşmaq istəmir və onları tənqid edir:

**Dünyada əbədi, sonsuzdur həyat,**
**Dünya nə fanidir, nə də vəfasız.**
**İnsanlar bu sirri anlamır heyhat,**
**Beləcə dünyanı sanır səfasız.**

**Sən ey yer üzünün əşrəfi insan!**
**Özündən özgə bir əşrəfə uyma.**
**Sənsiz yox dünyanın varlığı, inan,**
**Məhv edib dünyanı, özünsüz qoyma.**

Müəllif dünyaya həsr etdiyi qəzəlin sonunda isə dünyada insanlığın həmişə bir "əyləm" olduğuna işarə edir:

**Zakir, nə qədər açsa da "şeytanlara" meydan,**
**İnsanlıq üçün ən gözəl əyləmdi bu dünya.**

"Gənclik ömrün bahar çağı, həyatın çiçəklənən vaxtıdır" bölməsində cavanlıq mövzusuna aid yazdığı qəzəldə "cavanlıq" anlayışını ecazkar şeiriyyətin dili ilə belə tərənnüm edir:

**Ömrün təməli, təptəzə dövrandı cavanlıq.**
**Meydanda həyat eşqinə cövlandı cavanlıq.**

**Dünya evinin cümlə bəşər nəsli içində,**
**Çılqın, "dəlisov", bir igid oğlandı cavanlıq.**

**Həm güclü, cəsarətli və həm elmə həvəskar,**
**Qurmaqla, yaratmaqla ötən andı cavanlıq.**

**Zakir, əbədi, ardı kəsilməzdi bu dövrün,**
**Haqdan yazılan bir ulu fərmandı cavanlıq.**

Şair - publicist bu kitabında insanı yaşadan, onun qəlbini coşduran, xüsusilə həyatın



gənclik adlı fəslini daha mənalı , çırağban və xoşbəxt edən məhəbbət haqqında da fikir söyləməyi unutmür. "İstəmirəm məhəbbətsiz yaşamaq" adlı şeirində onun məhəbbətsiz yaşaya bilməsinin qeyri mümkün olduğunu poeziyanın köməyi ilə belə tərənnüm edir:

**Ömür mənə yaradandan pay gəlib,**
**Tanrı eşqi öz payına tay gəlib.**
**Həyatıma il yazmağa ay gəlib,**
**Nəyə lazım ömürləri daşlamaq,**
**İstəmirəm məhəbbətsiz yaşamaq.**

**Yaranışın özəyidir məhəbbət,**
**İnsanların bəzəyidir məhəbbət.**
**Şairlərin söz meyidir məhəbbət,**
**Qəlbdən silib olmur onu boşlamaq,**
**İstəmirəm məhəbbətsiz yaşamaq.**

Z.Bayramlı qocalıq mövzusuna həsr etdiyi bölməni "Qocalıq ucalıq və müdriklik rəmzidir" adlandırıb. O, qocalığın adını eşidib təşvişə və qorxuya düşənlərə öz iradını bildirir. Ömrün qocalıq fəslinin heç də qorxunc və təhlükəli olmadığını poeziyanın gücü ilə izah edir:

**Qocalıq düşgünlük, miskinlik deyil,**
**O çox hörmət ilə aramla gəlir.**
**Susub dinməməyi küskünlük deyil,**
**Keçdiyi yollara baxıb dincəlir.**

**Hamının ömründə bir naxışdır o,**
**Gəncliyi pərişan qoyur həmişə.**
**Arxaya boylanan bir baxışdır o,**
**Baxır içimizdən qopan keçmişə.**

"Qocalığımla söhbət" şeirindən bir parçada isə müəllif qocalığı ilə sanki o bir insan kimi danışır :

**Hər gün mənimləsən, yan-yörəmdəsən,**
**Yanımdan uzağa qova bilmirəm.**
**Artıq içimdəsən, bünövrəmdəsən,**
**Sənin gəlişinə mən sevinmirəm.**

**Gileyli-gileyli üzümə baxma,**
**Elə gileyliyəm özüm də səndən.**
**O yaş böyüdəni gözümə taxma,**
**Aldadıb gəncliyi alma əlimdən.**

**Görürəm ağıllı, müdrik qocasan,**
**Təzəcə çatmısan ahıl yaşına.**
**Nəbadə həyatdan bezib, qaçasan,**
**Tələsmə, çox qalıb mənzil başına.**

Sonra şair "Narazı deyiləm qocalığımdan" şeirində bəziləri kimi qocalığın gəlişinə kədərlənmədiyini, qəm-qüssə çəkmədiyini göstərir. Qocalığı bir "dost", "yoldaş" kimi qəbul edir. Psixoloji cəhətdən heç vaxt narahatlıq hissi keçirmir. Əksinə öz qocalığından razılığını bildirir. Onu tərifləyir, şəninə xoş sözlər deyərək onu ömrün hikmət, nur və ucalıq zirvəsinə qaldırır, Şeirdən bir parçaya diqqət yetirək:

**Nə lazım nəql edim bütün ömrümü,**
**Mənim heç o qədər vaxtım da yoxdur.**
**Sadə yaşamışam gələn günümü,**
**Möhtəşəm sarayım, taxtım da yoxdur.**

**Görüb buludları başımın üstdə,**
**Canım, elə bilmə səndən doymuşam.**
**Sadəcə, yaş gəlib yaşımın üstdə,**
**Qocalıq dövrünə qədəm qoymuşam.**

**Dağın əzəməti ucalığında,**
**Buludlar oynaşan zirvəsindədir.**
**İnsanın hörməti qocalığında,**
**Həyatda yerini bilməsindədir.**

**Zövq al bu hörmətli, müdrik çağımdan,**
**Bədbinlik, küsgünlük ömrü gödəldir.**
**Narazı deyiləm qocalığımdan,**
**Bu dövrü yaşamaq özü gözəldir.**

Kitabın səkkizinci bölməsi "Sağlam uzunömürlülük və onun açılmaqda olan sirrləri"nə həsr edilib. Müəllifin "Keçir" adlı şeiri onun "ömür haqqında söz"üdür. Həmin şeirdən bir parcada oxuyuruq:

**Ömürlə bir vaxtda doğulur insan,**
**Ömrün təknəsində yoğrulur insan.**
**Beləcə dünyaya " dağılır" insan,**
**Qismətin açdığı yollardan keçir.**
**Ömrünə yazılmış hallardan keçir.**

**Təkcə ömrümüzü yaşamırıq biz,**
**Ömrü bir yük kimi daşımırıq biz.**
**Həm də ömürlərdə yaşayırıq biz,**
**Hər şey yaradanın əmrindən keçir.**
**Hamı bir-birinin ömründən keçir.**

**Əslində insanın özüdür ömür,**
**Əbədi varlıqdır, gedir və dönür.**
**Ağıllı insanlar özünü görür,**
**Doğulan ömürlər canından keçir,**
**Ayrılır bətnindən, qanından keçir.**

Yaradıcılığının ilk və son kəlməsi Vətən, torpaq və xalq sözlərindən ibarər olan şair-publisist kitaba yazdığı "Son söz əvəzi"ni axır aylarda qələmə aldığı rübai və bayatı ilə belə tərənnüm edir:

***RÜBAİ***

**Dünyanı vətənim bilməliyəm mən,**
**Doğulub, yaşayıb, ölməliyəm mən.**
**Vətəni əbədi yaşatmaq üçün,**
**Dünyaya təzədən gəlməliyəm mən.**

***BAYATI***

**Ən gözəl yar Vətəndir,**
**Vətən ruhdur, bədəndir,**
**Üzmə ruhu bədəndən,**
**O səni var edəndir.**

Ömrünün 70-ci illərini yaşayan Z.Bayramlı bu kitabın yazılmasını bitirsə də gələcəkdə yenə yazmaq-yaratmaq sevdası-arzusu ilə yaşayır. Bunu özünün son dövürdə yazdığı bir rübaidə belə açıqlayır:

***RÜBAİ***

**Bir sevda köç salıb yenə başımda,**
**Eşqin süfrəsini açır qarşımda.**
**Mənim bu sevdadan gözüm su içmir,**
**Mənə eşq oxuyur ahıl yaşımda.**

Müəllifin "Qocalıqdan cavanlığa qayıdış" kitabı sağlam və uzun ömür sürmək istəyənlər üçün ağsaqqal öyüdü, ziyalı tövsiyyəsi, ömrünün qocalıq-müdriklik zirvəsini fəth etməyə çalışan bir şair-publisistin çağırışıdır. Ümidvarıq ki, bu əsər öz yüksək dəyəri ilə oxucu rəğbəti qazanmağa müvəffəq olacaqdır. Həyatının bu müdrik çağında qələm dostumuz Zakir müəllimə cansağlığı, yaradıcılıq uğurları və çoxlu sayda oxucu məhəbbəti arzulayırıq.

**Əbülfət Mədətoğlu,**
**Əməkdar jurnalist**



dekabr.-S.9.